**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ABDULQAHİR ƏL-CURCANİNİN ƏRƏB POETİKASININ İNKİŞAFINDA ROLU ("ƏSRAR ƏL-BƏLAĞƏ" VƏ "DƏLAİL ƏL- İCAZ" ƏSƏRLƏRİ ƏSASINDA)

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (ərəb ədəbiyyatı)

Elm sahəsi: Filologiya

İddiaçı: **Şəms İbrahim qızı Bağırova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Ərəb filologiyası" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor<br>**Gövhər Baxşəli qızı Baxşəliyeva** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, dosent<br>**Bəsirə Höccət qızı Əzizəliyeva** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Ruhəngiz Aydın qızı Cümşüdlü** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Faiq Qara oğlu Əliyev** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.18 − Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>________________ | AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor<br>**Gövhər Baxşəli qızı Baxşəliyeva** |
| Dissertasiya şurasının elmi katibi:<br>________________ | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Xanımzər Əli qızı Kərimova** |
| Elmi seminarın sədri:<br>________________ | AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor<br>**Muxtar Kazım oğlu İmanov** |

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Ərəb ədəbiyyatı dünyanın qədim və zəngin ədəbiyyatlarından biridir. Böyük bir zaman kəsiyini – V-XVIII əsrləri əhatə edən, dünya ədəbiyyatının zəngin qollarından biri sayılan klassik ərəb ədəbiyyatı çox geniş sərhədlərə qədər yayılmış, rəngarəng forma və ideya-məzmun çalarları ilə nəinki Şərq xalqlarının, eləcə də Qərbin estetik fikir dünyasında, elm və mədəniyyətində dərin iz buraxmışdır.

Klassik ərəb poetikasının yaranmasında və inkişafında ibn Quteybə (670-715), ibn əl-Mutəzz (861-908), Qudama ibn Cəfər (873-948), ibn Raşiq Qayravani (999-1064) və bir sıra başqa alimlərin böyük rolu olmuşdur. Klassik ərəb poetikası çoxşaxəli bir elm olub klassik ədəbiyyatda "bədi‘" adlanan poetik fiqurlar sistemi ilə yanaşı, bəlağət elminin bəyan, məani, əruz və s. nəzəri məsələlərini də əhatə edir. Yəni bir termin olaraq, poetika dar mənada bədii təsvir və ifadə vasitələrini, geniş mənada götürdükdə isə bütövlükdə söz sənətini əhatə edir.

Klassik ədəbiyyatda poetika daha çox "bəlağət" termini ilə əvəz olunur. Bu elmin yaranmasında və inkişaf etməsində böyük rolu olan müəlliflərdən biri də Abdulqahir əl-Curcani (400-471/1010-1078) olmuşdur. Onun ərəb poetikası və Quran ecazkarlığı ilə bağlı əsərləri əsrlər boyu öz aktuallığı ilə seçilmiş və özündən sonra yazıb-yaradan bir çox filoloqların fikir dünyasına təsir göstərmişdir. Abdulqahir əl-Curcaninin Şərq poetikasında irəli sürdüyü dəyərli fikirlər müəyyən mənada Qərb strukturalist nəzəriyyəsi ilə səsləşdiyindən, bu günümüzdə də böyük aktuallıq kəsb edir.

Abdulqahir əl-Curcani öz yaradıcılığında dilçilik və ədəbiyyatşünaslıq elmlərini ortaq məxrəcə gətirərək mükəmməl bir sistemin əsasını qoymuşdur. O, özündən əvvəl yazıb-yaratmış filoloqların yaradıcılığına tənqidi yanaşmış, poetika ilə bağlı bir sıra təlimlərdə özünəməxsus orijinal fikirləri, rəyləri ilə seçilmişdir.

Məhz bu səbəbdən Abdulqahir əl-Curcaninin zəngin irsinin öyrənilməsi, onun ərəb poetika elminə verdiyi töhfənin geniş və hərtərəfli tədqiq olunması bu gün də xüsusi aktuallıq kəsb edir.

"Abdulqahir əl-Curcaninin ərəb poetikasının inkişafında rolu

("Əsrar əl-Bəlağə" və "Dəlail əl-İcaz" əsərləri əsasında)" adlı dissertasiya işi ərəb, Azərbaycan, rus, ingilis, türk ədəbiyyatı müstəvisində geniş tədqiq olunmuşdur. Dissertasiya mövzusu monoqrafik tədqiqat kimi işlənmişdir.

Abdulqahir əl-Curcaninin həyat və yaradıcılığı, xüsusilə də "Əsrar əl-Bəlağə" ("Bəlağətin sirləri") və "Dəlail əl-İcaz" ("İcazın dəlilləri" (Quranın möcüzəsinin dəlilləri – Ş.B.) əsərləri orta əsr mənbələrindən başlayaraq müasir dövr araşdırmalarına qədər bir sıra mənbə və məxəzlərdə diqqət mərkəzində olmuşdur. Orta əsr islam mədəniyyətinin görkəmli nümayəndələrindən biri olan Abdulqahir əl-Curcani ilə bağlı dəyərli mənbələr arasında Əbul Bərəkət Əbdürrəhman əl-Ənbərinin (513-577h.) "Nuzhət əl-əlibbə" ("Ədiblərin arasına gözüaçıqların səyahəti"), Camaləddin Əbul-Hüseyn əl-Qıftinin (v. 624h.) "Ənbəh ər-ruvat alə ənbəh ən-nuhat" ("Rəvayətçilərin mahir qrammatiklərdə həvəs yaratması"), Əbu Məhəmməd Abdulla ibn Əsad əl-Yafiinin (v. 768 h.) "Mirat əl-cinan va ibrat əl-yaqzan" ("Bağların güzgüsü və ayıq şəxsin göz yaşı"), Şihabəddin əl-Hənbəlinin "Şəzərat əz-Zəhəb fi əxbər mən zəhəb" ("Gedənlərin xəbərlərinə dair qızıl dənəsi"), Yaqut Həməvinin "Mucəm əl-Udəbə" ("Ədiblər lüğəti"), İbn Xəlliqanın "Vafəyət əl-əyan" ("Görkəmli şəxslərin vəfatı") əsərlərində verilmiş məlumatlar Abdulqahir əl-Curcaninin tərcümeyi-halına dair əhəmiyyətli mənbələr hesab edilir.

Keçmiş Sovet və rus şərqşünas alimlərinin də əl-Curcani yaradıcılığına, xüsusilə də bədi‘ sənətinə böyük marağı olmuş, onun şəxsiyyəti və yaradıcılığını ciddi araşdıraraq, əsərlərindən tərcümələr etmişlər. D.N.Aleksandrovun "Bəlağət", V.Kaskelin "Kitab əl-bədi‘" və onun ərəb poetika və bəlağət elmində yeri", E.A.Kiselevin "Ümumi bəlağətin əsasları", N.Talipovun "Abdulqahir əl-Curcani və onun ərəb dilinin qrammatikasını təqdim etmə üsulu", İ.M.Filştinskinin "X-XVIII əsrlər ərəb ədəbiyyatı tarixi", İ.Y.Kraçkovskinin "Seçilmiş əsərləri" və s. bu baxımdan olduqca dəyərli əsərlərdir.

Avropa şərqşünaslığında da əl-Curcani yaradıcılığı daim diqqət mərkəzində olmuşdur. Dahi şəxsiyyətin həyat və yaradıcılığına həsr olunmuş əsərlər və tədqiqatların arasında B.Grinderin "Müasir dövrə

qədərki ərəb filoloqları: poeziyanın dostları ya düşmənləri? – Filologiyanın təsviri”, B.Adetunjinin “Məani elminin tərifi və əhatə dairəsi; cümlə növləri və xəbərin cümlədə yeri”, G.Gelderin “Xəttin kənarında. Klassik ərəb ədəbiyyatı tənqidçilərinin şeirin uyğunluğu və birliyinə dair fikirləri”, V.P.Heinriçsin “Şimal küləyinin əli: metaforaya dair fikirlər və ərəb poetikasında istiarənin ilkin mənası” və bir çox araşdırmanı misal göstərmək olar.

Orta əsrlər ərəb ədəbiyyatının görkəmli nümayəndəsi Abdulqahir əl-Curcaniyə dair Azərbaycan və türk mənbələrindən də çoxsaylı məlumat əldə etmək mümkündür. Bu sahə ilə sistemli olaraq məşğul olan və bir sıra əsərlər yazan müəlliflərdən biri olan professor Mahirə Quliyevanın “Quran bəlağəti və Azərbaycan ədəbiyyatı”, bununla yanaşı Əhməd Kömürçü Dursunoğlunun “Ərəb ədəbi tənqidinin inkişafında Qudama ibn Cəfər mərhələsi”, Geert Jan van Gelderin (tərcümə edən Ömər Qara) “Çirkini gözəlləşdirmə və gözəli çirkinləşdirmə”, Kadir Kınarın “Abdulqahir əl-Curcaninin nəzm nəzəriyyəsi”, Məhəmməd Xələfullahın (tərcümə edən Ömər Qara) “Bəlağətin sirləri”ndə Abdulqahirin nəzəriyyəsi: psixoloji yanaşma”, Nəsrullah Hacımüftüoğlunun “Abdulqahir əl-Curcani” və s. ciddi tədqiqat əsərləri hesab edilir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini ərəb ədəbi tənqidində və ərəb poetika elmində xüsusi yeri olan Abdulqahir əl-Curcaninin filoloji fəaliyyəti təşkil edir. Bu kontekstdə tədqiqatın predmeti onun “Əsrar əl-Bəlağə” və “Dəlail əl-İcaz” əsərləridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi “Əsrar əl-Bəlağə” və “Dəlail əl-İcaz” əsərlərinə əsaslanaraq, Abdulqahir əl-Curcaninin ərəb poetikasının inkişafında rolunu müəyyənləşdirməkdən ibarətdir. Məqsədin yerinə yetirilməsi üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

– Abdulqahir əl-Curcaninin həyatı, şəxsiyyəti və yaradıcılığına dair dolğun məlumat əldə edilməsi məqsədilə orta əsr mənbələrini tədqiq etmək;

– ərəb poetika elminin Abdulqahir əl-Curcaniyə qədərki təkamül yolunu araşdırmaq;

– əl-Curcaninin təqdimində ərəb poetikasının təsvirini vermək;

– islam və poeziya probleminə, eləcə də, Quranın ecazına əl-

Curcaninin baxış bucağından yanaşmaq;

–"Əsrar əl-Bəlağə" və "Dəlail əl-İcaz" əsərlərində Abdulqahir əl-Curcaninin işıqlandırdığı bədii ifadə və təsvir vasitələrini tədqiq etmək;

– alimin ərəb poetika elminə gətirdiyi yenilikləri üzə çıxarmaq;

– nəzm konsepsiyasını orta əsr alimi əl-Curcaninin fəhmi ilə təhlil etmək.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.**Tədqiqat prosesində nəzərdən keçirilən problemlərlə bağlı ərəb ədəbiyyatşünaslığının, eləcə də, Qərbi Avropa, keçmiş Sovet və Azərbaycan şərqşünaslığının elmi-qənaət və təcrübəsindən istifadə edilmişdir.

Dissertasiyanın yazılmasında tarixi-müqayisəli və sistemli təhlil, o cümlədən, ümumiləşdirmə metodundan istifadə edilmiş, kompleks tədqiqat üsulu tətbiq edilmişdir. Dissertasiya tədqiqatın predmeti ilə əlaqədar mübahisə doğuran məsələlərin görkəmli alim, nəzəriyyəçi və ədəbiyyatşünasların müddəalarına əsaslanaraq təhlil və həll olunmasına yönəlmiş, ilkin qaynaqlar araşdırılmış, hasil olan fikirlərə çağdaş ədəbiyyatşünaslığın meyarları baxımından yanaşılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

–Abdulqahir əl-Curcani ərəb poetika elminin inkişafında xüsusi çəkisi olan filoloqdur;

–əl-Curcaninin ərəb poetika elminə gətirdiyi yeniliklər onun elmi-nəzəri mülahizə və düşüncələri Qurani-Kərimlə sıx bağlı olmuşdur;

–Abdulqahir əl-Curcaninin poetika elmi ilə bağlı düşüncələri özündən əvvəlki ədəbi-tənqidi mülahizələrlə sıx bağlı olub ərəb poetika elminin təkamülündə yeni mərhələdir;

–Abdulqahir əl-Curcani ibn əl-Mutəzz tərəfindən yaradılmış bədi' elmini inkişaf etdirmiş, təlil və təxyil sənətlərini gündəmə gətirmişdir;

– əl-Curcani təcnis, təşbih, kinayə və s. kimi bəzi poetik fiqurların, xüsusilə də istiarənin ərəb poeziyasında geniş təhlilini vermişdir;

–Abdulqahir əl-Curcani Quran icazında nəzm nəzəriyyəsinin izahını vermişdir.

**Tədqiqatın elmi yeniliyi**. Bir sıra tədqiqatlarda mövzu müəyyən dərəcədə öyrənilsə də, dissertasiya işində ilk dəfə olaraq Abdulqahir əl-Curcaninin iki böyük əsəri olan "Əsrar əl-Bəlağə" və "Dəlail əl-İcaz" əsərləri elmi-nəzəri cəhətdən təhlil edilmiş və alimin qeyd olunan əsərləri ilə ərəb poetikasının inkişafına verdiyi töhfə kompleks şəkildə araşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**.

−Tədqiqat işi ali məktəblərin şərqşünaslıq fakültələrində və xüsusi kurslarda orta əsrlər ərəb ədəbiyyatının nəzəri məsələlərinin, xüsusilə də bəlağət, nəzm və poetik fiqurların tədrisində və müvafiq mühazirələrin hazırlanmasında dərs vəsaiti kimi istifadə edilə bilər;

−Azərbaycan ədəbiyyatşünaslığında istifadə olunan poetik fiqurlarla ərəb ədəbiyyatında mövcud olan bədii ifadə vasitələrinin müqayisəli təhlilə cəlb olunmasına səbəb ola bilər;

− növbəti elmi araşdırmalarda, o cümlədən nəinki ərəb poetikası, hətta klassik Azərbaycan ədəbiyyatının tədrisi ilə bağlı da istifadə edilə bilər;

− ərəb ədəbiyyatı nəzəriyyəsinin öyrənilməsində mənbə rolunu oynaya bilər.

**Tədqiqat işinin aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas elmi məzmunu və nəzəri müddəaları silsilə elmi-praktik yerli və beynəlxalq konfranslarda məruzə və çıxışlarda işıqlandırılmışdır. Tədqiqatın əsas müddəa və nəticələri Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda, həmçinin xarici ölkələrin nüfuzlu məcmuə və jurnallarında, ölkə daxili və xaricində keçirilən beynəlxalq konfrans materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Ərəb filologiyası şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu və ümumi həcmi.** Titul vərəqi– 408 işarə; Mündəricat – 1664 işarə; Giriş – 10 302 işarə; I Fəsil – 34 604 işarə; II Fəsil – 105 462 işarə, III Fəsil – 117 811 işarə; Nəticə – 9978 işarə; Ədəbiyyat siyahısı – 11 401 işarə. Ümumi həcmi – 291 712 işarə.

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

Dissertasiya işinin "**Giriş**" hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsindən bəhs edilmiş, tədqiqatın məqsəd və vəzifələri, metodları müəyyən edilmiş, müdafiəyə çıxarılan əsas müddəalar göstərilmiş, dissertasiya işinin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti əsaslandırılmışdır

Dissertasiya işinin I fəsli**"Abdulqahir əl-Curcaninin həyatı və ədəbi şəxsiyyəti"**adlanır.

Orta əsr islam mədəniyyətinin görkəmli nümayəndələrindən biri Abdulqahir əl-Curcani ədib, dilçi alim, görkəmli filoloq kimi tanınmışdır. Ərəb ədəbiyyatı və ümumilikdə Şərq ədəbiyyatı tarixi üzrə mütəxəssis olan A.Kudelin Abdulqahir əl-Curcaninin bir sıra poetika məsələləri ilə bağlı təliminin *"özündən əvvəl mövcud olmuş fikirləri sıxışdırıb orta əsrlər ərəb ədəbiyyatı nəzəriyyəsində son orijinal və nüfuzlu"*[1] nəzəriyyə olduğunu bildirir. Rus dilçi alimi V.Girqasa görə, fars mənşəli olmasına baxmayaraq, ərəb və türk dillərinə mükəmməl bələd olan əl-Curcani istedadlı alim, ensiklopediyaçı, lakin hər şeydən əvvəl qrammatika, ritorika, stilistika, ədəbiyyat və islam hüququ sahəsində mütəxəssis olmuşdur[2]. Abdulqahir əl-Curcani öz yaradıcılığı ilə ərəb ədəbi tənqidinin çoxəsrlik inkişafını tamamlamış, onun irsi ərəb bəlağət və üslubiyyat elminin zirvəsində dayanmışdır. Alimin həm də qrammatika sahəsində hərtərəfli biliyə malik olması, Qurani-Kərim üzərində müşahidələrə əsaslanan dərin araşdırmalar aparmaq qabiliyyəti onu bəlağət elminin zirvəsinə yüksəltmişdir. Buna görə də sovet tarixçi və şərqşünası İ.M.Filştinski onun öz təlimi ilə müasir dövrümüzə xas bir sıra dərin nəzəri məsələləri qabaqladığını qeyd edir[3].

Orta əsr ərəb ədəbi tənqidinin klassik mərhələsi mükəmməl alim, ritorika və stilistika sahələri üzrə nəzəriyyəçi Abudulqahir əl-

---

[1] Куделин А.Б., Средневековая арабская поэтика. Москва: Наука, 1983, с.165

[2]Талипов, Н. Абдул Кахир ал-Джурджани и его способ изложения грамматики арабского языка. Челябинск: Вестник Челябинского Государственного Университета, 2006, № 3. с.140.

[3]Фильштинский И.М. История арабской литературы X-XVIII века. Москва: Главная редакция восточной литературы, 1991, с.441.

Curcaninin yaradıcılığı ilə başa çatmışdır.

Bu fəslin **“Abdulqahir əl-Curcaninin tərcümeyi-halı orta əsr ərəb mənbələrində”** adlanan birinci paraqrafında ədibin həyatı və tələbələri haqqında məlumat verilmiş, əsərləri, xüsusilə də “Əsrar əl-Bəlağə” və “Dəlail əl-İcaz” əsərlərinin məzmunu qısa şəkildə açıqlanmış, onun sözügedən əsərləri yazmaqla ərəb poetika elminə gətirdiyi yeniliklərin əhəmiyyəti vurğulanmışdır.

Ərəb dilçilik elmində özünəməxsus yeri olan əl-Curcani Təbəristan və Xorasan arasında yerləşən Curcanda anadan olmuş və bütün həyatını burada keçirmişdir. Təhsilini başa vurduqdan sonra o, Curcanda dərs deməyə başlamış və şöhrəti tez bir zamanda yayılmışdır. Ondan dərs almaq istəyən elm həvəskarları Curcana axın etməyə başlamışlar. Alimin Əli ibn Zeyd əl-Fasihi, Əbu Zəkəriyyə ət-Təbrizi və s. kimi tələbələri olmuşdur.[4]

Curcaninin tərcümeyi-halı bir sıra ərəb mənbələrində öz əksini tapmışdır. Bunlar arasında Əbul Bərəkət Əbdürrəhman əl-Ənbərinin “Nuzhət əl-əlibbə” əsəri ən dəyərli mənbələrdən hesab oluna bilər. Ənbəri Curcanini ilk növbədə öz dövrünün korifey dilçilərindən biri kimi təqdim edir və göstərir ki, o, Əbu Hüseyn Məhəmməd ibn əl-Hüseyn əl-Farisinin tələbəsi olub və öz əsərlərində daha çox ona müraciət etmişdir. Curcani bir çox dəyərli əsərləri arasında Ənbəri onun Farisinin “əl-Muğni fi şarh əl-İdah” (“Əl-İzah” kitabının şərhinə dair faydalı əsər”) əsərinə şərh yazdığını göstərir və ədibin Cəririn şeirinə yazdığı bu şərh barədə məlumat verir.[5]

Əl-Ənbəridən sonra Abdulqahir Curcaniyə zaman etibarı ilə nisbətən yaxın olub onun barəsində məlumat verən görkəmli ensiklopedik alim Camaləddin Əbul-Hüseyn əl-Qıftıdır. Qıfti “Ənbəh ər-ruvat alə ənbəh ən-nuhat” (“Qrammatiklərin diqqətinə rəvayətçilərin diqqəti”) adlı əsərində Curcaniyə ayrıca oçerk həsr etmişdir. Onun əsərləri haqqında danışarkən Əbu əl- Farisinin “İzah”

---

[4] Khalafallah, M., “Belagatın Sırları”nda Abdulkahirin teorisi: Psikolojik Bir Yaklaşım”, çev.Ömer Kara // Uluslararası Sosyal Araştırmalar dergisi. cilt 4, sayı 17, 2011, s.627

[5]-. أبو البركات ابن الأنباري ، نزهة الألباء في طبقات الأدباء ، تحقيق إبراهيم السامرائي ، الاردن،
الزرقاء، المكتبة المنار. – 1985، ص264

əsərinə yazdığı şərhin, “əl-Avamil” (“Amillər”) və “əl-Cuməl” (“Cümlələr”) əsərlərinin adlarını çəkir. Curcaninin “Dəlail əl-İcaz” əsərinin onun bəlağət elmini nə dərəcədə dərindən bilməsinə dəlalət etməsini göstərir. Bundan başqa, onun yanına müsəlman dünyasının bir çox yerlərindən tələbələr gəldiyini qeyd edir və Curcaninin ən ünlü tələbəsi kimi Əbu Əli əl-Fasihinin adını çəkir.[6]

Abdulqahir əl-Curcani ilə bağlı mənbələr cərgəsində Əbu Məhəmməd Abdulla ibn Əsad əl-Yafiinin “Mirat əl-Cinan” əsərini də qeyd etmək lazımdır. Bu əsərdə Curcani barədə verilən məlumatlar olduqca az olub, əvvəlki mənbələrdə verilən xəbərlərin bir qismini təkrarlayır. Müəllif Curcaninin Şafii-əşəri məzhəbinə mənsub olduğunu qeyd edir, onun məani və bəyan elmində yüksək mərtəbəyə çatdığını vurğulayır.[7]

Əl-Curcani ilə bağlı dəyərli mənbələrdən biri də Şihabəddin əl-Hənbəlinin “Şəzərat əz-Zəhəb fi əxbər mən zəhəb” əsəridir. Əl-Hənbəli Curcaninin bir çox əsərlərinin adını çəkir, əsas diqqətini əl-Curcaninin nəhvlə bağlı yaradıcılığına yönəldir və bildirir ki, o, bu sahədə çox üstün olmuşdur. Əl-Hənbəli alimin dilçilik əsərləri içərisində “Kitəb əl-Cuməl”i (“Cümlələr kitabı”) xüsusi qeyd edir və həmin əsərə şərh yazdığını da söyləyir. Bundan əlavə o, əl-Curcaninin ilahiyyat sahəsində də əsərləri olduğunu, onun Qurani-Kərimin Fatihə surəsinə ayrıca bir şərh yazdığını söyləyir. Qıftinin əksinə, Hənbəli onun çox qənaətcil və dünya malına həris olmayan insan olmasını göstərir.[8]

İbn Xəlliqanın “Vafəyətul-əyan” əsərində də Curcaninin Əbu Əli əl-Fasihinin müəllimi olması göstərilir[9].

Ümumiyyətlə, bütün bu deyilənlərdən belə bir nəticə hasil olur

---

6 جمال الدين أبي الحسن القفطي،انباهالرواة على أنباه النحاة، تحقيق محمد أبو الفضل إبراهيم، القاهرة، دار الفكر العربي، 1986 ، ص188-189

7 سليمان اليافعي، مرأة الجنان و عبرة اليقظان، بيروت، لبنان، دار الكتب العلمية، 1997 ,78.ص

8 شهاب الدين الحنبلي، شذرة الذهب في أخبار من ذهب، تحقيق عبد القادر الأرناووط، بيروت، دار إبن كثير، 1989 ص.308-309

9 شمس الدين إبن الخلكان، وفياة الأعيان و أنباء ابناء الزمان، تحقيق إحسانعباس، بيروت: دار صادر، 1978، ص93

ki, Abdulqahir əl-Curcani islam dünyasının məşhur alimlərindən olmuş, onun bəlağət və dilçilik elminə bəxş etdiyi töhfələr orta əsr alimlərinin nəzər-diqqətini cəlb etmişdir.

Əl-Curcani "Əsrar əl-Bəlağə" və "Dəlail əl-İcaz" əsərlərində dildə bəlağətin əhəmiyyətindən danışır. O, "Dəlail əl-İcaz" əsərində məani elminin, "Əsrar əl-Bəlağə" əsərində isə bəyan elminin nəzəriyyəsini tərtib etmişdir. Onun hər iki əsəri ərəb şeirinin təxminən bir neçə əsrlik dövrü əhatə edən nümunələrini ehtiva edir.

Ərəb dilinin bütün incəliklərinə bələd olan, eyni zamanda nəhv sahəsində də öz sözünü demiş Əbu Bəkr əl-Curcani "imam ən-nihad" – "dilşünasların öndəri, ərəb dili və ədəbiyyatında imam, ən böyük ustad" hesab olunur. O, lüğət, sərf, nəhv, məani, bəyan kimi elmlərdə dövrünün alimlərinin ən qabaqcıllarından olmuşdur.

Abdulqahir əl-Curcaninin ərəb dünyasına bəxş etdiyi başqa bir yenilik də bəlağət sahəsində olmuşdur. Bir elm və söz sənəti nəzəriyyəsi kimi bəlağətin üç bölməyə (məani, bəyan, bədi') ayrılması da ilk dəfə XI əsrin ərəb alimi, görkəmli ədəbiyyatşünas Abdulqahir əl-Curcani tərəfindən aparılmışdır.

I fəslin **"İslam və poeziya problemi Abdulqahir əl-Curcaninin təqdimində**" adlanan ikinci paraqrafında isə Curcaninin şeirə qarşı çıxanlara qarşı cavabı, habelə Qurani-Kərimdə və hədislərdə poeziyaya olan münasibətə ədibin nümunələrlə aydınlıq gətirməsi kimi məsələlər öz əksini tapmışdır.

İslamın möhtəşəm kitabı olan Qurani-Kərimin başa düşülməsində ərəb dilçiliyi ilə yanaşı, ədəbiyyatın, xüsusilə də şeirin önəmi mütləq qeyd edilməlidir. Şeir – bəlağət, üslub (stilistika) və ədəbi tənqid növlərindən ibarət "ritorika" və ya "ilm əl-bəlağət" olaraq sinifləndirilmişdir[10]. Məna baxımından isə şeir ərəb dilində "شعر – hiss etmək" sözündən yaranmışdır[11]. Şair hiss etdiklərini qələmə alır, duyğularını şeir dili ilə ifadə edir. Hətta eramızdan əvvəl yaşamış yunan alimi Platon da poeziyanın insanın xarakterini

---

[10]Geert Jan van Gelder. Tərcümə edən Ömer Kara. Çirkini Güzelleştirme ve Güzeli Çirkinleştirme: Klasik Arap Literatüründe Paradoks // Usul Dergisi. 2009, s.176

[11]Баранов Х.К. Большой арабско-русский словарь в 2-х томах. Т. 1. Москва: 2002, с.406

tamamilə dəyişməyə qadir olduğunu demişdir[12].

Şeir sənəti cahiliyyət dövründə nə dərəcədə əhəmiyyət kəsb edirdisə, islam dini yarandıqdan sonra da öz aktuallığını saxlamışdı. Ərəb şeirinin ən gözəl nümunələrinin Beytullahın divarlarında asılması da ərəblərin şair sözünə, şeir sənətinə verdikləri dəyərin bir işarəsidir.

Abdulqahir əl-Curcani şeirə dair fikirlərinə özünün "Dəlail əl-İcaz" əsərində geniş yer vermişdir. Alim qeyd edir ki, ərəblərin divanı və ərəb ədəbiyyatının ünvanı hesab olunan şeir şübhəsiz ki, həm də ərəblərin fəsahət və bəyan sahəsindəki yarış meydanları olmuşdur. Əl-Curcani əsərində şeirə dair bəhsinə şeiri qınayanların irəli sürdükləri əsas üç səbəbi göstərərək başlayır:

1. Şeirdəki səviyyəsiz sözlər, yalan və batil şeylər.
2. Şeirin vəznli və qafiyəli olması ondan uzaq durulması üçün yetərli səbəbdir.
3. Şeirdə şairlər öz həyatlarından bəhs edirlər. Onların həyatı isə heç də gözəl deyil, həm də şairlər bu səbəbdən Quranda da qınanmışdılar[13].

Şeiri tənqid edənlərin birinci səbəbinə əl-Curcani cavab olaraq bildirir ki, pis ifadələr, yalan və batil sözlər şeir formasında olmayan danışıqda daha çoxdur. Tənqidin ikinci səbəbinə dair alim şeirdəki vəzn və qafiyə ilə güclü ifadələri, gözəl məntiqi, gözəl bədii ifadə üsullarını seçərək adi bir mənanın necə ucaldıla bilinəcəyi, bir sözün necə bəzədilib gözəlləşdiriləcəyi və s. qeyd edir. Alim şeirə qarşı çıxılmanın üçüncü səbəbinin də əsassız olduğunu sübut etmək üçün göstərir ki, bəzi şairlərin tüfeyli həyatı əş-Şüəra surəsinin 224-226-cı ayələrini əhatə etsə də, sonuncu ayədə bir qisim şairlərin istisna təşkil etdiyi açıq şəkildə nazil olmuşdur[14]. Bütün bunlar isə bir daha sübut edir ki, şeir yazmaq, demək, dinləmək heç də günah və ya pis bir iş deyil.

Qurani-Kərimdə olduğu kimi, hədislərdə də poeziyaya

---

[12] Аристотель. Поэтика Риторика. Санкт-Петербург: Азбука, 2013, с.9

[13] عبد القاهر الجرجاني ، دلائل لاعجاز ، تحقيق محمد رضوان الداية ، فايز الداية ،دمشق: دار الفك، 2011، ص68

[14] Qurani-Kərim. Tərcümə edənlər: Z.M.Bünyadov, V.N.Məmmədəliyev. Bakı: 2005, s.376.

münasibət birmənalı deyil. Şeirin əleyhinə olan hədislər kimi, şeiri qiymətləndirən hədislər də var. Əl-Curcani kitabında iki bir-biri ilə müəyyən qədər ziddiyyət təşkil edən bəzi hədisləri qeyd edir və şeir tənqidçilərinin bu hədislərdən birini əsas götürüb, digərini görməzlikdən gəldiyini oxucuya çatdırır. Kəab ibn Zuheyr, Malik ibn Rəvaha, Həssan ibn Sabit Rəsulullahın "peyğəmbər şairi" kimi şöhrət qazanmış ərəb şairləri olmuşdur. Peyğəmbərə nəinki ilkin islam və sonrası, hətta XX əsrdə də şeir yazan şairlər var idi. Əhməd Şövqi belə şairlərə misal ola bilər[15].

Beləliklə, I fəsildə əldə olunan nəticələr aşağıdakılardır:

− ərəb və türk dillərinə mükəmməl şəkildə bələd olan Abdulqahir əl-Curcani istedadlı alim, ensiklopediyaçı, lakin hər şeydən əvvəl qrammatika, ritorika, stilistika, ədəbiyyat və islam hüququ sahəsində mütəxəssis olmuşdur. Fars mənşəli olmasına baxmayaraq, o, heç bir əsərini farsca yazmamışdır. Bir çox alimlər tərəfindən ərəb dili stilistikasının ayrıca bir elm sahəsi kimi yaradıcısı olaraq qəbul olunan əl-Curcani "imam ən-nihad" – "dilşünasların öndəri, ərəb dili və ədəbiyyatında imam, ən böyük ustad" hesab olunur;

− ədibin "Əsrar əl-Bəlağə" və Dəlail əl-İcaz" əsərləri bəlağət elmi (fəsahət və ritorika sənəti) və bəyan elminə (ərəb ritorikasının metaforik dilə münasibəti) həsr olunmuş, burada ritorikanın forma və məzmun nöqteyi-nəzərindən müxtəlif aspektləri hərtərəfli və dərin şəkildə araşdırılmışdır. Məhz bu əsərlərdə alim öz yaradıcılığının ən gözəl nümunəsini göstərmişdir. Abdulqahirə qədər bəlağət elmləri başqa sahələrlə yanaşı işlənirdisə də, o, bəlağət sahəsini ayırıb müstəqil elm kimi təqdim etmişdir;

− Dahi alim "Dəlail əl-İcaz"əsərində ərəb dilinin qrammatik vasitələrini tədqiq etməklə qrammatika və formal məntiq məsələlərini araşdıran "ilm əl-məani" – "məna haqqında elm"in əsasını qoymuşdur. "Əsrar əl-Bəlağə" əsəri isə ərəb dilinin aydın və bəlağətli ifadə sənətini öyrənən "ilm əl-bəyan" ərəb tənqidinin üç bölməsinin yaranması üçün bünövrə olmuşdur;

---

[15] Yalar M. İslami Arap Şiiri ve Hazreti Peygamber // Uludağ Üniversitesi, İlahiyat Fakültesi Dergisi, cild 18, sayı 1. 2009, s.84-85.

– “Dəlail əl-İcaz” və “Əsrar əl-Bəlağə” əsərlərinin ərəb şeirinin təxminən bir neçə əsrlik dövrünü əhatə edən nümunələri ehtiva etməsi, Abdulqahir əl-Curcaninin nəinki yeniləşmə dövrünə, eləcə də Əbu Təmmam və Buhturi yaradıcılığına dönə-dönə müraciət etməsi onun qədim və yeni poeziya meyarlarında daha mütərəqqi yer tutduğunu göstərir. Ədibin hər iki əsəri mövzuya yanaşma tərzi və qavrayışı baxımından çağdaş əsərlər kimidir;

– alimin qrammatika sahəsində hərtərəfli biliyə malik olması, öz yaradıcılığı ilə ərəb ədəbi tənqidinin çoxəsrlik inkişafını tamamlaması, Qurani-Kərim üzərində müşahidələrə əsaslanan dərin araşdırmalar aparmaq qabiliyyəti onu ərəb bəlağət və üslubiyyat elminin zirvəsinə yüksəltmişdir;

– Curcani şeirə dair fikirlərinə özünün “Dəalil əl-İcaz” əsərində geniş yer vermişdir. O, şerə qarşı çıxanlara qarşı əsaslı arqumentlər irəli sürərək cahiliyyət dövründə böyük əhəmiyyət kəsb edən şeir sənətinin islam dini yarandıqdan sonra da öz aktuallığını saxladığını, o dövrdə hətta “peyğəmbər şairi” kimi şöhrət qazanmış şairlərin olduğunu da göstərmişdir;

– orta əsr ərəb ədəbi tənqidinin klassik mərhələsi mükəmməl alim, ritorika və stilistika sahələri üzrə nəzəriyyəçi Abudulqahir əl-Curcaninin yaradıcılığı ilə başa çatmışdır.

Bu fəsildən əldə olunan əsas müddəalar elmi jurnallarda dərc olunmuş məqalələrdə işıqlandırılmışdır.

Tədqiqat işinin **“Ərəb poetikası və Abdulqahir əl-Curcani”** adlanan II fəslinin **“Ərəb poetika elminin əl-Curcaniyə qədərki təkamülü və onun Curcani yaradıcılığında təqdimi”** adlı ilk paraqrafında poetika və poetik sistemlər haqqında məlumat verilmiş, klassik ərəb poetikasının yaranmasında rolu olmuş alim, şair və ravilərdən bəhs olunmuş, dildə bəlağətin əhəmiyyəti vurğulanmış, poetik məcazlar və fiqurlar haqqında nəzəriyyə olan “əl-bədi’” elminə Curcaninin əlavə etdiyi yeniliklər və özünəməxsus yanaşmaları yer almışdır.

Ərəb poetika elminin müəssisi sayılan ibn əl-Mutəzz “Kitab əl-Bədi’” əsərində poetik fiqurlar və ərəb poeziyasının digər ifadə vasitələrini sistemləşdirmiş, onlara uyğun terminologiya yaratmışdır. Onun poeziyaya dair “Kitab əl-Bədi’” əsəri Yaxın Şərqdə yeni bir

elmin əsasını qoymuşdur. İbn əl-Mutəzzdən sonra ərəb poetikasında bir sıra yeni sənət növləri, poetik fiqurlar kəşf edildi. Artıq Əbu Hilal əl-Əskərinin "Kitab əs-Sına'ateyn kitəbət və əş-şir" ("Yazı və şer sənəti kitabı") əsərində poetik fiqurların sayının qırxa yaxınlaşdığını, ibn Raşiq Qayravaninin isə altmışadək bədi' kateqoriyasından danışdığını görürük[16].

Ərəb bədi' sənətində yeni kateqoriyaların meydana çıxması ilk növbədə poetika elminin digər elmlərlə, xüsusilə, fəlsəfə, məntiq və dilçiliklə sıx əlaqəsi zəminində reallaşırdı. Ədəbi əsərlərin dərin analizi, ədəbi tənqidin norma və prinsiplərinin formalaşması bu dövrə təsadüf edir[17].

Bəlağətin bir hissəsi olan "bədi'" terminin lüğəvi mənası "gözəl nitqli, heyrətamiz, möcüzəvi"dir[18]. "Bədi'"də nitqin gözəlliyi onun bədii funksiyasının müxtəlif çalarları ilə əlaqəlidir. O, bədii sözü və məna gözəlliyi yaradan sənətkarlıq vasitələrini öyrənir. Bəlağət təkcə forma ilə deyil, həm də məna və məzmunla bağlıdır. Buna görə də bəlağət və bədiiyyat vasitələri iki hissəyə ayrılır:

1. Bədii forma, yəni ləfzi gözəllik yaradan vasitələr.
2. Məna gözəlliyi yaradan vasitələr[19].

Ümumiyyətlə, dil, sərf, nəhv, təfsir, məani, bəyan, bədi' və s. elmlər islamın və müqəddəs Quranın meydana gəlməsinin nəticəsi idi. Çünki cahiliyyət dövründə ərəblər bu elmləri araşdırmağa və tərtib etməyə ehtiyac duymurdular. Lakin islamın yaranması ilə adı çəkilən elmlərin qaydalarının tərtib edilməsi və nizamlanması üçün zərurət yarandı.

Bəlağətə dair tədqiqatların nəticəsi olaraq, ədəbiyyatın həm bəlağət, həm də ədəbi tənqid sahəsi inkişaf etmişdir. Bu tədqiqatçılar

---

[16] Чалисова Н.Ю. Комментарии Рашид ад-Дин Ватват. Сады волшебства тонкостях поэзии. Перевод с персидского, исслед. и ком. Н.Ю.Чалисовой. Москва: 1985, с.17.

[17] Ханна аль-Фахури. История арабсой литературы. Том II. Москва: Издательство Иностранной литературы, 1961, с.210.

[18] Баранов Х.К. Большой арабско-русский Словарь в 2-х томах. Т 1. Москва: 2002, с.60.

[19] Babayev Y. XIII – XIV əsrlər ana dillilirik şeirimizin inkişaf yolu. Bakı: 2009, s.217.

arasında ibn əl-Mutəzz (861-908) və əl-Cahizdən (781-868) başqa ibn Sallam (124/741-200/815), Əbul Fərəc əl-İsfəhani (343-425) və b. göstərmək olar[20].

Bəlağət məsələsinə öz əsərlərində geniş yer vermiş alimlərdən olan Abdul Müttəlib "Əl-Bəlağə va əl-Üslubiyyə" əsərində qeyd edir ki, bəlağət tərkiblərə xas olan mənanın tam olaraq ifadə edilməsini öyrənir[21]. Əbu Hilal əl-Əskəriyə (ö.395) görə, bəlağətin əsas işi sözü gözəlləşdirməkdir[22]. X əsrdə poetika və bəlağətə dair yazılmış çoxsaylı əsərlərdən yalnız əl-Əskərinin "Kitab əs-Sına'ateyn əl-kitəbə va-ş-şir" əsəri bizim dövrümüzə qədər qorunmuşdur. Əslində bu, adı çəkilən müəllifin sözügedən sahədəki sələflərinin düşüncələrini ehtiva edən bir əsərdir. Lakin əl-Əskəri cəsarətlə poetika və bəlağəti birləşdirir.[23]

XI əsr ərəb poetikasına dair əhəmiyyətli əsərlərdən biri ibn Raşiqin (995/1000-1063/1064) "Kitab əl-umdə fi sına'at əş-şir va naqdihi" əsəridir. Bu əsər həmin dövrün poeziya və onun tədqiqinin daha əhatəli və yaxşı sistemləşdirilmiş nəzəriyyəsindən ibarətdir.

Ərəb bəlağətinə yeni və daha əhəmiyyətli töhfəni əl-Curcani vermişdir. Müəllif iddia edir ki, ədəbi əsərin əsas elementi quruluşdur. Quruluşun mahiyyəti isə mənadır. Ərəb bəlağət elminin mahiyyətini təyin edən qısa və aydın düsturu biz onun "Əsrar əl-Bəlağət" əsərində tapırıq. Ədibin "Dəlail əl-İcaz" və "Əsrar əl-Bəlağə" əsərləri görkəmli alimin çoxcəhətli və məhsuldar yaradıcılığında diqqətəlayiq yer tutur. Bu iki əsər ərəb ritorikasına dair tədqiqatların dönüş nöqtəsi olmuşdur. Adı çəkilən əsərlərdə əl-Curcani ritorikanın forma və məzmun nöqteyi-nəzərindən müxtəlif aspektlərini hərtərəfli və dərin şəkildə araşdırır.

Bəyan elminə dair dəyərli fikirlərə sahib alimlərdən olan əl-

---

[20] Özdoğan A. İcazu-l-Kuran meselesinin belagat ilminin gelişmesine etkisi //Dinbilimleri Akademik araştırma dergisi III, 2-ci sayı. 2003, s.114

[21] Yavuz G. Kinayeli Anlatımın Yorumsal Değeri // C.Ü.İlahiyat Fakültesi Dergisi. 2006, s.236

[22] Öznurhan H. Abu Hilal el-Askeriye göre lafz ve anlam // Sakarya Üniversitesi, İlahiyat Fakültesi dergisi, sayı 14. 2006, s.145

[23] Гафарова У. Становление и развитие арабской риторики до XIV века // Ученые записки гуманитарные науки, №2. 2012, с.6-7

Curcani "Dəlail əl-İcaz" kitabında bəyan elminə ayrıca bir fəsil ayıraraq qeyd edir ki, insanlar xarakterləri etibarilə vaqif olduqları elm sahəsini ucaldır, bilmədikləri sahəni isə bir qədər gözdən salmağa, öz sahələrinin daha üstün olduğunu sübut etməyə çalışırlar. Onun fikrincə, bu, insanların öz elm sahələrinə olan hədsiz sevgisindən qaynaqlanır. Curcani fikirlərini belə dilə gətirir: *"Bəyan elminə gəlincə isə, sən bu elmdən daha köklü-budaqlı, meyvəsi daha dadlı, suyu daha yumşaq, məhsulu daha bol və daha aydınlıq olan başqa bir elm tapa bilməzsən. Lakin bəyan elminin uğradığı haqsızlığa uğramış başqa bir elm tapa bilməzsən"*[24].

Abdulqahir əl-Curcaninin ərəb poetika elminə gətirdiyi əsas yenilik onun poetikanı linqvistika ilə sıx vəhdətdə götürüb, bununla da linqvopoetikanın əsasını qoyması idi. Onun digər bir xidməti isə poetika elminə fəlsəfi ünsürlər daxil etməsi sayıla bilər. Hadisələrə, onların ədəbi əsərlərdə əks olunma xüsusiyyətlərinə dini-sxolastik və fəlsəfi müstəvidə fikir verən ədib əsas diqqətini poetik deyimin analitik təhlilinə yönəldir, hər bir deyimin daxili motivasiyasını, poetik təsvirləri bir-birinə bağlayan səbəb-nəticə əlaqələrini araşdırırdı.

Abdulqahir əl-Curcani özündən əvvəlki poetika, dilçilik və Quran eqzegetikası sahəsində yaranan bilikləri mənimsəyib ərəb bəlağət elmini yeni mərhələyə qaldırmışdır. O, bəlağəti donuq bir elm kimi deyil, canlı materiala, poeziya və nəsr nümunələrinə əsaslanan dinamik bir elm kimi təqdim etmişdir. Digər tərəfdən, alimin əsərlərindəki şeir şəvahidinin qədim dövr şairləri ilə məhdudlaşmayıb, yeniləşmə və klassisizm dövrü şairlərinin yaradıcılığını da əhatə etməsi onun ərəb poeziyasına və söz sənətinə kompleks halında yanaşıb mühüm nəzəri qənaətləri mövcud dil amilləri üzərində qurmasından xəbər verir.

Sözügedən fəslin "**Quranın ecazı Abdulqahir əl-Curcaninin gözü ilə**" adlanan II paraqrafında ilk olaraq, "icaz" sözünün açıqlaması verilir, müqəddəs kitabın icazını tədqiq etmiş islam alimlərinin bu sahədə qələmə aldıqları əsərlərə müraciət edilmiş,

---

[24] عبد القاهر الجرجاني ، دلائل لاعجاز ، تحقيق محمد رضوان الداية ، فايز الداية ،دمشق: دار الفك،
2011، ص63

Curcaninin Quranın ecazı məsələsinə yanaşması təhlil olunmuşdur.

"İcaz əl-Quran" – Qurani-Kərimin əlçatmaz üstünlüyünü ifadə edən termin, bu mövzuda yazılan əsərlərin ortaq adıdır. "İcaz" sözünün açıqlamasına gəldikdə, məlumdur ki, dilimizdə "icaz" kimi səslənən sözün ərəb dilində iki cür yazılışı vardır: الايجاز və الإعجاز

الايجاز– (icaz) "lakoniklik, qısalıq"[25], yəni az sözlə çox şey ifadə etmək, bir məqsədi ən spesifik sözlə dilə gətirmək deməkdir. الإعجاز – (icaz) "aciz qoymaq" mənasını verir.[26] Bu söz Qurani-Kərimin bənzərinin bir daha yazıla bilməyəcəyini bildirmək, Quranın möcüzəviliyinin, üslubundakı özəlliklərin bənzərsiz olduğunu göstərmək üçün işlədilir. Bizim mövzumuz الإعجاز haqqındadır.

Abdulqahir əl-Curcaninin fikrincə, Quranın icazı, onun söz tərkibi, nə fonetik quruluşu, nə ritmik təşkilinin xüsusiyyətləri ilə bağlı deyil, çünki yuxarıda qeyd olunanlar həm daha öncə cahiliyyət və islamın ilk yarandığı dövrün poeziya və şifahi nitqində mövcud idi, həm də bu xüsusiyyətlər hər surə üçün səciyyəvi deyildi. Buna görə də əl-Curcani belə bir nəticəyə gəlir ki, Quran bütün söz sənətinə dair əsərlərdən ideal nəzminə görə seçilir[27].

Quranın icazının nəzmdə olduğunu irəli sürən nəzəriyyəyə nəzm nəzəriyyəsi deyilir. Abdulqahir əl-Curcani bəlağət elminin yaradıcısı və nəzm nəzəriyyəsinin sistemləşdiricisidir. Əl-Curcani bildirir ki, islam dünyasında ortaya çıxan inkarçılıq hərəkətlərinə qarşılıq olaraq, Quranı müdafiə və onun möcüzəviliyini isbat etmək üçün nəzm nəzəriyyəsini inkişaf etdirmişdir.[28] Curcanlı alim nəzm nəzəriyyəsi ilə həm ərəb dili bəlağəti, həm də Quranın üslub nəzəriyyəsində cığır açmışdır.

II fəslin **"Abdulqahir əl-Curcaninin nəzm konsepsiyası"** adlanan son paraqrafında Curcaninin nəzm nəzəriyyəsi və bu

---

[25] Античные риторики/ Соб., ком. и общ. ред. Тахо-Годи А. Москва: Издательство МГУ, 1978, с.874

[26] Античные риторики/ Соб., ком. и общ. ред. Тахо-Годи, А. Москва: Изд-во МГУ, 1978, с.498

[27] Фильштинский И.М. История арабской литературы X-XVIII века. Москва: Главная редакция восточной литературы, 1991, с. 441

[28] Kınar K. Abdulkahir el-Curcaninin nazm teorisi / Sakarya: Sakarya Üniversitesi, İlahiyat fakültesi dergisi, 2006. № 13. s.68.

nəzəriyyənin təməl fikirləri sadalanmış, Qurana üstünlük qazandıran nəzmə geniş yer verdiyi "Dəlail əl-İcaz" əsəri geniş müstəvidə tədqiq olunmuşdur.

Klassik ərəb şeirində "nəzm" termini hər zaman "vəznli söz" mənasında deyil, eyni zamanda "hüsni təlif" (gözəl söz söyləmə) mənasında da işlənmişdir. Bu termin daha çox "icaz əl-Quran"a dair deyilən sözlərdə meydana gəlmişdir.

Abdulqahir əl-Curcani "Dəlail əl-İcaz" əsərində sistematik olmasa da, ərəb mətninin dəyərinin və Quranın icazının nəzmdə olduğunu çatdırmağa çalışmışdır.

Əl-Curcaninin nəzəriyyəsində təməl fikirlər olaraq aşağıdakılar qeyd olunur:

1. Nə söz, nə də məna ayrı-ayrılıqda bir məna kəsb etmirlər.

2. Nəzmin müxtəlif səviyyələri var. Ən aşağı səviyyə yalnız nəzmin qrammatik cəhətdən doğruluğudur. Ən üst səviyyəsi isə Quranda özünü göstərən bəlağət və icazdır.[29]

Bəlağət və fəsahətin mahiyyətinə dair fikirlərini yazarkən alim qeyd edir ki, məna ən doğru tərzdə ifadə edilmədikcə və mənanı ifadə edən ən özəl, ən açıq, ən əskiksiz olan və mənaya üstünlük qazandıran sözlər seçilmədiyi müddətcə sözün bir əhəmiyyəti yoxdur. Sözün cümlə içindəki yerinin əhəmiyyətindən bəhs edərkən əl-Curcani şairlərdən misallar gətirərək bunu izahlı şəkildə göstərir, sözlərin düzgün və yerində işləndiyi zaman beytlərə gözəllik verdiyini qeyd edir.

Beləliklə, II fəsildə əldə olunan nəticələr bunlardır:

−klassik ərəb poetikasının yaranması elmi ədəbiyyatda müxtəlif elm sahələrinə mənsub olan alimlərin, habelə şairlərin xidməti kimi təqdim edilmişdir. Poetik məcazlar və fiqurlar haqqında nəzəriyyə − "əl-bədi‘" ilk dəfə şair və filoloq ibn əl-Mutəzz tərəfindən işlənmiş, beləliklə də Yaxın Şərqdə yeni bir elmin əsası qoyulmuşdur. Sözügedən alim ərəb ədəbi tənqidinin və poetikasının banisi hesab edilir;

−onun "Kitab əl-Bədi‘" əsəri ərəblərdə poeziyaya dair ilk

[29]Kınar K. Abdulkahir el-Curcaninin nazm teorisi / Sakarya: Sakarya Üniversitesi, İlahiyat fakültesi dergisi, 2006. № 13. s.99.

sistematik traktat və poetikaya dair ilk orijinal əsərdir. Sözügedən əsəri ərəb ədəbiyyatşünasları tam yekdilliklə həm də poetik tərzə aid fiqurların təsnifatının verildiyi ilk əsər hesab edir;

–ibn əl-Mutəzzdən sonra bədi’ elmi inkişaf etmiş, Əbu Hilal əl-Əskəri, ibn Raşiq Qayravani kimi alimlər ona bir sıra əlavələr etmişlər. Əl-Əskəridə poetik fiqurların sayı qırxa, Qayravanidə altmışa çatmışdır;

–Curcani ərəb poetika elminin inkişafında xüsusi çəkisi olan filoloqdur. O öz yaradıcılığında qrammatika və poetika məsələlərini birləşdirmişdir. Alimin poetika elmi ilə bağlı düşüncələri özündən əvvəlki ədəbi tənqidi mülahizələrlə sıx bağlı olub ərəb poetika elminin təkamülündə yeni mərhələ təşkil edir. Onun yaradıcılığı yalnız ərəb ədəbi tənqidçilərin deyil, həm də dilçi alimlərin əsərlərindən bəhrələndiyindən o, ərəb poetikası tarixində linqvopoetik istiqamətin nümayəndəsi sayıla bilər;

–bəlağətin üç qismə (“ilm əl-məani”, “ilm əl-bəyan” və “ilm əl-bədi‘”) bölgüsü də əl-Curcani tərəfindən aparılmışdır. Abdulqahir əl-Curcaninin təqdim etdiyi bəlağət konsepsiyası olduqca əhatəli olub, bu sahələrin hər üçünü əhatə edir. İstər orta əsr mənbələrində, istərsə də müasir araşdırmalarda onu məani və bəyan elmlərinin müəssisi saymışlar. Onların fikrincə, “Dəlail əl-İcaz” məani elminin, “Əsrar əl-Bəlağə” isə bəyan elminin əsasını təşkil edir;

–Abdulqahir əl-Curcaninin özündən əvvəlki poetika, dilçilik və Quran eqzegetikası sahəsində yaranan bilikləri mənimsəyib ərəb bəlağət elmini, linqvopoetikanı yeni mərhələyə qaldırması onun poetika elminə gətirdiyi yenilik sayıla bilər;

–alimin əsərlərindəki şeir şəvahidinin qədim dövr şairləri ilə məhdudlaşmayıb, yeniləşmə və klassisizm dövrü şairlərinin yaradıcılığını da əhatə etməsi onun ərəb poeziyasına və söz sənətinə kompleks halda yanaşdığını göstərir;

– İcaz əl-Quran məsələsində mötəzilə alimləri xüsusi səy göstərmişlər. Sarfə nəzəriyyəsi bu sahədə yeni bir başlanğıc olmuşdur. Lakin əl-Curcaninin fikrincə, Quranın icazı, onun söz tərkibi, nə fonetik quruluşu, nə ritmik təşkilinin xüsusiyyətləri ilə bağlı deyil, çünki sadalananlar həm cahiliyyət və islamın ilk yarandığı dövrün poeziya və şifahi nitqində mövcud idi, həm də bu

xüsusiyyətlər hər surə üçün səciyyəvi deyildir. Buna görə də əl-Curcani belə bir nəticəyə gəlir ki, Quran bütün söz sənətinə dair əsərlərdən ideal nəzminə görə seçilir;

–o, “Dəlail əl-İcaz” əsərini Quranı öyrənmək, onun ecazkarlığının sirrini açıqlamaq məqsədilə yazmışdır. Alim müqəddəs kitabın üslubiyyatı, bədii cəhətləri barədə dərin nəzəri mülahizələri ilə Quranın icazının nəzmdə olduğunu irəli sürən nəzm nəzəriyyəsinin əsasını qoymuşdur. Bəlağət elminin yaradıcısı və nəzm nəzəriyyəsinin sistemləşdiricisi olan curcanlı alim nəzm nəzəriyyəsi ilə həm ərəb dili bəlağəti, həm də Quranın üslub nəzəriyyəsində cığır açmışdır.

Bu fəsildən əldə olunan əsas müddəalar elmi jurnallarda dərc olunmuş məqalələrdə işıqlandırılmışdır.

Tədqiqat işinin III fəsli **“Abdulqahir əl-Curcani və bədi’ sənəti”** adlanır.

IX əsrin sonunda meydana çıxan “yeni” tərz – bədi’ nin البديع praktik (əməli) inkişafı VII əsrin II yarısından, daha dəqiq desək, son rübündən başladı. Bu nəzəriyyənin yaranmasının səbəbi müəyyən dərəcədə Aristotelin IX əsrdə ərəb dilinə tərcümə edilmiş yunan bəlağəti olmuşdur. Tədqiqatçılar Quranda və qədim ərəb poeziyasında yunan bəlağətini ehtiva edən fiqur və məcazlar axtarmağa başladılar. Ərəblər “bədi’”nin onlar üçün yenilik olmadığını sübut etməyə çalışırdılar, onun elementləri Quran və islamaqədərki poeziyada artıq var idi. Onlar bu elementləri ayırmağa və onlara təriflər verməyə başladılar. “Əl-bədi’” sözü ilkin vaxtlarda “gözəl, yeni və nadir olan bir şey” mənasını verirdi və Quran və poeziyanın zərif ifadələrinin müəyyənləşməsinə xidmət edirdi. Artıq IX əsrin sonunda ərəb alimləri müxtəlif məcazlara terminoloji xarakter daşıyan adlar verməyə başladılar. Bu adlar, əlbəttə, hər zaman onlarla uyğun gəlmir və onları tam şəkildə izah etmirdi[30].

Curcanidən əvvəl ibn əl-Mutəzz “Kitab əl-Bədi’ ” əsərində poetik fiqurlar və ərəb poeziyasının digər ifadə vasitələrini sistemləşdirmiş, onlara uyğun terminologiya yaratmışdır. Abbasilər

[30] Гафарова У. Становление и развитие арабской риторики до XIV века //Ученые записки гуманитарные науки, №2, 2012, с.6

xilafətinin xəlifələrindən olan ərəb şairi və filoloqu ibn əl-Mutəz ədəbiyyata dair bir neçə antologiya, "yeni" şairlərə dair böyük bir antologiya, ədəbi plagiatlar haqqında kitab, aforizm toplusu və s. müəllifidir. Şeirə yeni bir istiqamət gətirən ibn əl-Mutəzzin poeziyaya dair "Kitab əl-Bədi' " əsəri Yaxın Şərqdə yeni bir elmin əsasını qoymuşdur.

Bu fəslin **"Bədii ifadə və təsvir vasitələrinə dair Abdulqahir əl-Curcaninin fikirləri: kinayə, məcaz, təmsil, təşbih, təcnis"** adlanan ilk paraqrafında adları çəkilən poetik fiqurların rəngarəng çalarları alimin nöqteyi-nəzərindən araşdırılmış, burada müxtəlif dövrlərə aid nümunələr öz əksini tapmışdır.

Abdulqahir əl-Curcani də ibn əl-Mutəzz kimi bədi' sənətini öyrənmiş, təcnis, istiarə, mutabaqa və s. poetik fiqurlara xüsusi fəsillər ayırmış, hətta ibn əl-Mutəzzdən də irəli gedib bu sənətə təxyil poetik fiqurunu əlavə etmişdir. Məhz əl-Curcani bu sənətin ilk dəfə olaraq, konturlarını cızmış, onun başqa fiqurlarla əlaqəsinə aydınlıq gətirmiş, təxyilin nəzəri konsepsiyasını hazırlayıb konkret misallar əsasında onun mahiyyətini açıqlamışdır.

Kinayə haqqındakı bəhsində alim qeyd edir ki, bütün bəlağətçilər kinayəli ifadənin kinayəsiz ifadədən (ifsah), eyhamlı ifadənin eyhamsız ifadədən daha təsirli olduğu, istiarənin bir üstünlük və gözəllik daşıdığı, məcazın həqiqi ifadədən (haqiqat) daha təsirli olduğu barədə ortaq fikirdə olmuşlar.

Curcani sözün təsirini və gözəlliyini artıran poetik fiqurlardan bəhs edərkən təmsil, təşbih, təcnisin istifadə edildiyi şeirlərdən nümunələr göstərir.

Bu fəslin **"Abdulqahir əl-Curcaninin ərəb poetika elminə gətirdiyi yeniliklər: təxyil və təlil sənəti"** adlanan ikinci paraqrafında təxyil və təlil poetik fiqurundan bəhs olunmuş, alimin "Əsrar əl-Bəlağə" əsərində yer alan müxtəlif şairlərdən nümunələr gətirilmişdir.

Hər iki əsərində bədi' fiqurlarına böyük yer ayıran alim bu sənətin korifey bilicilərindən biri olmuşdur. Həm təxyil, həm də təlil sənətlərinin poetikanın ayrılmaz komponenti kimi araşdırılması, onların yalnız poetik deyimlə deyil, həm də yazıçı təxəyyülü, onun real hadisələrə fantastik don geyindirmək qabiliyyəti ilə

əlaqələndirilməsi məhz əl-Curcaninin Şərq poetika elminə töhfəsidir.

Təxyil bir şeyi xəyal etmək, onun barəsində zənnə düşmək (onu təsəvvür etmək) deməkdir. Əl-Curcaniyə görə, bir sıra hallarda şairlər bu və ya digər əşyanı, anlam və hadisəni üstün tutarkən və yaxud onların naqisliyini bildirərkən, həmin əşyanın başqa əşyalarla bənzər cəhətləri əsasında xəyali səhnələr yaradırlar. Bu cür zahirən bənzər əşyalar ilk baxışda üstün tutulacaq və yaxud pislənəcək bir xüsusiyyətə malik olmasa da, xəyalın gücü ilə bu xüsusiyyətləri kəsb edirlər. Buna misal olaraq, əl-Curcani qara qarğa və ağ qartalı göstərir. Buhturinin şeirində deyilir:

و بياضُ البازي اصدق حُسْنًاً          إن تأملتِ من سواد الغرب.[31]

*“Əgər dərindən düşünsən görərsən ki, qartalın ağlığı qarğanın qaralığından daha gözəldir”.*

Məlumdur ki ağ rəng qocalıqla, qara rəng isə cavanlıqla bağlıdır. Buna müvafiq, şeirdə ağ qartal qocalığın, qara qarğa cavanlığın rəmzidir. Şair ağ qartalı heç də onun gözə gözəl görünmədiyinə görə tərifləyib qara qarğadan üstün tutmur. O demək istəyir ki, rənglərin bu cür bəyənilib-bəyənilməməsi əslində onların ifadə etdiyi mənalarla bağlıdır. Əgər qara saçlar gəncliyin əlaməti olmasa, qara rəng sevilərmi?

Tədqiqat işinin III fəslinin **“Ərəb poetikasında istiarənin yeri”** adlanan son paraqrafında həm Abdulqahir əl-Curcaniyəqədərki ərəb poetika elmində, həm də Abdulqahir əl-Curcaninin təqdimində istiarə fiquru haqqında danışılır.

Abdulqahir əl-Curcani təqdimatında istiarə ilk növbədə bir poetik fiqurdur. O, təşbih və təmsilin bir növü sayıla bilər.

*“İstiarə ilə bir şeyi digərinə bənzətmək istəyirsən. Amma bunu açıq-aşkar bir təşbihlə etmirsən. Bunun əvəzinə bənzədilənin adını bənzəyənlə əvəz edirsən. Tutaq ki, sən “şücaət və qüvvətdə şirə bənzəyən bir kişi gördüm” demək istəyirsən. Bu cür bir ifadəni tərk edib, əvəzində: “Mən şir gördüm” deyirsən”. İstiarədən istifadə edərkən sən “onun cilovu şimal küləyinin əlində idi” deyirsən.*

*Adamlar istiarədən danışarkən bunu da (yuxarıdakı) birinci*

[31] عبد القاهر الجرجاني، كتاب اسرار البلاغة، علّق عليه محمود محمد شاكر، الناشردار المدني بجدة، 2005، 268 ص

*növdən hesab edirlər. Halbuki onları eyniləşdirmək olmaz. Birinci halda, sən bir şeyi digəri ilə əvəz edirsən, ikinci halda isə bir şeyə ona aidiyyatı olmayan nəyisə aid edirsən”*[32].

Bu parçadan görünür ki, əl-Curcani istiarəni iki yerə bölür. Birinci halda, söz bütünlüklə başqa bir sözlə əvəz edilir, yəni insan əvəzinə onun şücaətdə bənzədiyi “şir” işlənir. İkinci halda isə, bir əşyaya aid olmayan bir əlamət şimal küləyinə aid edilir. Əl-Curcani hər iki növü təfsilatı ilə izah edib, onlara aid misallar gətirir.

Dildə bəlağətin əhəmiyyətindən danışan Əl-Curcaninin “Əsrar əl-Bəlağə” və “Dəlail əl-İcaz” əsərləri özündən sonrakı alimlər üçün mənbə rolunu oynamışdır. Tədqiqat işində Abdulqahir əl-Curcani yaradıcılığı müxtəlif aspektlərdən təhlil edilmişdir. Nəticədə, sözügedən alimin ərəb poetikasında əvəzsiz bir yerə sahib olmasının şahidi oluruq.

III fəsildə əldə olunan nəticələr bunlardır:

−Abdulqahir əl-Curcani ədəbi zövqün həm subyektiv, həm də obyektiv tərəflərini işləyərək yeni bir elm sahəsinin – bəyan elminin bünövrəsini qoymuşdur. O, “Əsrar əl-Bəlağə” əsərində, əsasən, bəlağətin bəyan qisminə aid olan təşbih, istiarə, məcaz, təmsil və kinayə ilə yanaşı, bədi‘ elminə aid olan cinas, səc və onun tətbiqi məsələləri üzərində ətraflı şəkildə işləmişdir. Abdulqahir əl-Curcani yaradıcılığında təcnisə xüsusi qiymət verilir. Belə ki, ədibin müraciət etdiyi ilk poetik fiqur təcnisdir. Digər bədii ifadə vasitələrindən bəhs edərkən alim təşbih və təmsili fərqləndirərək təşbihin ümumi, təmsilin isə xüsusi olduğunu qeyd edir. Belə ki, bütün təmsillər təşbih ola bilər, lakin bütün təşbihlər təmsil ola bilməz. Təşbihdə hər iki tərəf – bənzəyən və bənzədilən mütləq qeyd olunur. Çünki hər hansı biri qeyd olunmasa, bu artıq istiarə olar;

− əl-Curcani “təlil” (səbəbi izah etmə) və “təxyil” (poetik təxəyyül, xəyalda canlandırma) poetik fiqurunu əlavə etməklə ərəb poetika elminə böyük yeniliyi gətirmişdir. Məhz əl-Curcani bu iki poetik fiquru poetikanın ayrılmaz komponenti kimi araşdırmaqla, onları yalnız poetik deyimlə deyil, həm də yazıçı təxəyyülü ilə

---

[32] عبد القاهر الجرجاني ، دلائل لاعجاز ، تحقيق محمد رضوان الداية ، فايز الداية ،دمشق: دار الفك، 2011 ، ص 111

əlaqələndirməklə Şərq poetika elminə töhfə vermişdir;

− baxmayaraq ki, ərəb ədəbiyyatşünaslığında təmiz ərəb istiqamətini yaratmış ibn əl-Mutəzzin Curcaniyə təsiri Qudama ibn Cəfərin təsirindən daha güclü olmuşdur, lakin bəzi hallarda Curcani yaradıcılığının birbaşa yunan məntiqi və fəlsəfi irsi ilə də səsləşdiyi, üstünlüyü sırf ərəb poetikasına verdiyi görünür. Məsələn, onun bədi‘ sənətinin poetik fiqurlarına "təlil" və "təxyil"i əlavə etməsində yunan təsirini görmək mümkündür;

− məhz əl-Curcani təxyilin ilk dəfə olaraq, konturlarını cızmış, onun başqa fiqurlarla əlaqəsinə aydınlıq gətirmiş, təxyilin nəzəri konsepsiyasını hazırlayıb konkret misallar əsasında onun mahiyyətini açıqlamış, onu konkret bir sözlə deyil, beytin ümumi məzmunu ilə əlaqələndirmişdir. Təxyilin sonrakı inkişafında bu terminin konkret poetik fiqur olmaqdan çıxıb şeir yaradıcılığı prosesini əhatə etdiyi görünür;

− orta əsr ərəb filoloqları tərəfindən müəyyən edilib poetik sistemin əsas komponenti kimi tanınan istiarə əsl nəzəri təhlilini əl-Curcani yaradıcılığında tapmışdır. Ədibin təqdimində metaforaya – istiarəyə yanaşma olduqca geniş və hərtərəflidir. Bu yanaşma metaforanı müxtəlif cəhətlərdən öyrənir. O, istiarənin dilçilik baxımından xarakteristikasını verir, onların isim, feil, ismi-məful, ismi-fail olmaqla təqdim üsullarına nəzər salır;

− İstiarənin الاستعارة الاسم və الاستعارة الفعل olmaqla iki növə bölünməsi kimi özəl bir təsnifatı da əl-Curcani tərəfindən verilmişdir;

− Curcani yaradıcılığında istiarə ilə bağlı təhlillər əvvəlki müəlliflərin əsərlərində müşahidə etdiyimiz təsvirçilikdən fərqli olaraq, ciddi elmi-nəzəri araşdırmalardır. Nəticədə, Abdulqahir əl-Curcaninin sayəsində ərəb şeirinin əsas xüsusiyyətlərindən biri olan istiarənin nəzəri konsepsiyası yaranmışdır.

Bu fəsildən əldə olunan əsas müddəalar elmi jurnallarda dərc olunmuş məqalələrdə əksini tapmışdır.

**Tədqiqat işində aşağıdakı nəticələr əldə olunmuşdur:**

− Bütün əsərlərini ərəbcə yazıb-yaradan fars mənşəli alim Abdulqahir əl-Curcani dilçiliyin və ədəbiyyatın müxtəlif sahələrinə dərindən bələd olan görkəmli filoloq, eyni zamanda ritorika, stilistika və islam hüququ sahəsində mütəxəssis olmuşdur. Dilçilik sahəsində

“imam ən-nihad” – “dilşünasların öndəri, ərəb dili və ədəbiyyatında imam, ən böyük ustad” ləqəbi ilə şöhrət qazanın əl-Curcaninin yaradıcılığı ərəb ədəbi tənqidçiləri ilə yanaşı, dilçi alimlərin öz əsərlərində bəhrələndiyi bir mənbə rolunu oynamışdır. O, bir çox alimlər tərəfindən ərəb dili stilistikasının ayrıca bir elm sahəsi kimi yaradıcısı olaraq qəbul olunur;

− alimin qrammatika sahəsində hərtərəfli biliyə malik olması, öz yaradıcılığı ilə ərəb ədəbi tənqidinin çoxəsrlik inkişafını tamamlaması, öz yaradıcılığında qrammatika və poetika məsələlərini birləşdirməsi, eyni zamanda Qurani-Kərim üzərində müşahidələrə əsaslanan dərin araşdırmalar aparmaq qabiliyyəti onu ərəb bəlağət və üslubiyyat elminin zirvəsinə yüksəltmişdir. Abdulqahirə qədər bəlağət elmləri başqa sahələrlə yanaşı işlənirdisə də, o, bəlağət sahəsini ayırıb müstəqil elm kimi təqdim etmişdir;

− yaradıcılığı bir tərəfdən yunan məntiqi və fəlsəfi irsi, digər tərəfdən isə ərəb bəlağəti ilə səsləşən Abdulqahir əl-Curcaniyə həm ibn əl-Mutəzzin, həm də Qudama ibn Cəfərin təsiri hiss olunur. Alimin özündən əvvəlki poetika, dilçilik və Quran eqzegetikası sahəsində yaranan bilikləri mənimsəyib ərəb bəlağət elmini, linqvopoetikanı yeni mərhələyə qaldırması onun poetika elminə gətirdiyi yenilik sayıla bilər;

− Quran bəlağəti, Quran mətninin yüksək bədii-estetik dəyəri tədqiqatçıların, təfsirçilərin, kəlam mütəxəssislərinin, filoloqlarının diqqətini həmişə cəlb etmiş, həmin maraq zəminində bəlağət elminin əsasları qoyulmuşdur. İcaz əl-Quran məsələsində mötəzilə alimləri xüsusi səy göstərmişlər. Lakin Abdulqahir əl-Curcani Quranın icazından bəhs edərkən, onun nə söz tərkibi, nə fonetik quruluşu, nə ritmik təşkilinin xüsusiyyətləri ilə bağlı olmadığını göstərir. O, Quranın üslubiyyatı və bədii cəhətləri barədə dərin nəzəri mülahizələr irəli sürərək, müqəddəs kitabın bütün söz sənətinə dair əsərlərdən ideal nəzminə görə seçildiyini qeyd edir və beləliklə də, alim Quranın icazının nəzmdə olduğunu irəli sürən, eyni zamanda ərəb dili bəlağətinin və Quranın üslub nəzəriyyəsində yeni bir cığır olan nəzm nəzəriyyəsinin əsasını qoymuşdur;

− Abdulqahir əl-Curcaninin ərəb poetika elminə gətirdiyi əsas yeniliklər onun poetikanı linqvistika ilə sıx vəhdətdə götürüb,

linqvistikanın əsasını qoyması, poetika elminə fəlsəfi ünsürlər daxil etməsi, həmçinin təsvirçiliyə nisbətən, dərin elmi disskussiya, nəzəri araşdırma və təhlillərə daha çox yer verməsidir. Nəticədə, Abdulqahir əl-Curcaninin sayəsində ərəb şeirinin əsas xüsusiyyətlərindən biri olan istiarənin misilsiz nəzəri konsepsiyası yaranır;

– “Əsrar əl-Bəlağə” və “Dəlail əl-İcaz” əsərlərində Əl-Curcani öz yaradıcılığının ən gözəl nümunəsini göstərmişdir. Hər iki əsərində o, müxtəlif dövrlərdə yaşayıb-yaratmış şairlərin yaradıcılığına müraciət etmişdir. Əl-Curcaninin “Əsrar əl-Bəlağə” əsəri bəlağət elminə (fəsahət və ritorika sənətinə) həsr olunmuşdur. Onun “Dəlail əl-İcaz” əsəri isə bəyan elminə (ərəb ritorikasının metaforik dilə münasibəti) dair məsələləri əhatə edir;

– bəlağətin bölgüsü (“ilm əl-məani”, “ilm əl-bəyan” və “ilm əl-bədi‘”) ilk dəfə əl-Curcani tərəfindən aparılmışdır. Onun təqdim etdiyi bəlağət konsepsiyası bu sahələrin hər üçünü əhatə etməklə yanaşı, poeziya və nəsr nümunələrinə əsaslanır. Həm orta əsr, həm də müasir tədqiqatçıların fikrincə, “Dəlail əl-İcaz” əsərində dahi alim ərəb dilinin qrammatik vasitələrini tədqiq etməklə qrammatika və formal məntiq məsələlərini araşdıran “ilm əl-məani” – məna haqqında elmin əsasını qoymuşdur. Ədibin “Əsrar əl-Bəlağə” əsəri isə ərəb dilinin aydın və bəlağətli ifadə sənətini öyrənən “ilm əl-bəyan”ın əsasını təşkil edir.

– Abdulqahir əl-Curcani “Dəlail əl-İcaz” əsərini Quranı öyrənmək, onun ecazkarlığının sirrini açıqlamaq məqsədilə yazmışıdr. Bundan əlavə, o, sözügedən əsərində şeirə qarşı olan münasibət barəsində fikirlərinə də yer vermişdir. Şeirin ərəblərin divanı və ərəb ədəbiyyatının ünvanı hesab olunmasına baxmayaraq, bəzi səbəbləri irəli sürərək onu qınayanlara qarşı tutarlı faktlar irəli sürmüş, şeir sənətinin həm cahiliyyət dövründə, həm də islam dini yarandıqdan sonra eyni dərəcədə əhəmiyyət kəsb etdiyini bildirmişdir. O dövrdə hətta “peyğəmbər şairi” kimi şöhrət qazanmış şairlərin olduğunu da göstərmişdir. Alim “Əsrar əl-Bəlağə” əsərində isə, əsasən, bəlağətin bəyan qisminə aid olan təşbih, istiarə, məcaz, təmsil və kinayə, habelə, bədi‘ elminə aid olan cinas, səc və onun tətbiqi məsələləri üzərində ətraflı şəkildə işləmişdir;

– poetik məcazlar və fiqurlar haqqında nəzəriyyənin yaradıcı,

ərəb ədəbi tənqidinin və poetikasının banisi sayılan ibn əl-Mutəzz Yaxın Şərqdə yeni bir elmin əsası qoymuşdur. Ərəblərdə poeziyaya dair ilk sistematik traktat, poetikaya dair ilk orijinal əsər, habelə ərəb ədəbiyyatşünasları tərəfindən tam yekdilliklə poetik tərzə aid fiqurların təsnifatının verildiyi ilk əsər hesab olunan "Kitab əl-Bədi'"nin müəllifindən sonra bədi' elmi daha da inkişaf etmişdir. Bir sıra alimlər bədii ifadə vasitələri sisteminə əlavələr etmiş, Əbu Hilal əl-Əskəri, ibn Raşiq Qayravani kimi alimlərin əsərlərində sözügedən fiqurların sayı artıb altmışa qədər çatmışdır;

– bədi' sənətinin kamil bilicilərindən biri olan əl-Curcani də bu sahəyə öz töhfəsini vermiş, ibn əl-Mutəzzdən də irəli gedib ərəb poetika elminə ən böyük yeniliyi gətirmiş, "təlil" (səbəbi izah etmə) və "təxyil" (poetik təxəyyül, xəyalda canlandırma) poetik fiqurunu əlavə etmişdir. Bu iki poetik fiqurun poetikanın ayrılmaz komponenti kimi araşdırılması, onların yalnız poetik deyimlə deyil, həm də yazıçı təxəyyülü ilə əlaqələndirilməsi məhz əl-Curcaninin Şərq poetika elminə töhfəsidir. İlk dəfə olaraq, məhz əl-Curcani təxyil sənətinin konturlarını cızmış, onun başqa fiqurlarla əlaqəsinə aydınlıq gətirmiş, təxyilin nəzəri konsepsiyasını hazırlayıb konkret misallar əsasında onun mahiyyətini açıqlamışdır;

– poetik sistemin əsas komponenti kimi tanınan istiarə də əsl nəzəri təhlilini Abdulqahir əl-Curcani yaradıcılığında tapmışdır. O, sələflərindən fərqli olaraq, istiarəni geniş tədqiqata cəlb edərək bu poetik fiqurun müxtəlif prinsiplər əsasında təsnifatını aparmış, onun digər fiqurlardan fərqini, onlarla bənzər cəhətlərini göstərmişdir. Ədib istiarəni təhlil edərkən sxolastik metodikaya əsaslanaraq, onu müxtəlif cəhətlərdən öyrənir. O, təşbih və təmsilin bir növü sayılan istiarəyə poetik fiqur qismində yanaşır, istiarənin dilçilik baxımından xarakteristikasını verir, onu isim, feil, ismi-məful, ismi-fail olmaqla təqdim edir və s.

– əl-Curcani sistemində istiarənin yalnız ədəbi proseslə, yüksək üslubiyyatla bağlı olmayıb, gündəlik danışıqda əks olunması da bildirilir. Buna görə də, onun təqdimində istiarə sırf bədi'yyatla bağlı bir hadisə olmaqdan əlavə, həm də ictimai bir ifadə tərzidir. Alimin bu fikri müasir elmi nəzəriyyələrlə səsləşir. Əl-Curcani istiarənin özəl bir təsnifatını verib onu الاستعارة الاسم ismi istiarə və الاستعارة الفعل feli

istiarə olmaqla iki növə bölür. Abdulqahir əl-Curcaninin istiarə ilə bağlı maraqlı fikirlərindən biri də onun bu poetik fiquru həqiqətə nə dərəcədə yaxın olması prinsipindən təsnif edib üç qismə ayırmasıdır;

− islam dünyasının məşhur alimlərindən olan Abdulqahir əl-Curcani yaradıcılığını təhlil və tədqiq etdikdə belə bir nəticə hasil olur ki, onun bəlağət və dilçilik elminə bəxş etdiyi töhfələr nəinki orta əsr, həm də müasir alimlərin də nəzər-diqqətini cəlb etmişdir. Dilçilik və ədəbiyyatın müxtəlif sahələri üzərində dərin incəliklərə qədər təhlillər aparıb, onların mahiyyətini açıqlaması və s. xüsusiyyətləri ilə Curcaninin bu və ya digər məsələlərə yanaşma tərzi özündən sonrakı alimlərin yaradıcılığına da təsir göstərmiş, onlar üçün ilham qaynağı olmuşdur. Orta əsr ərəb ədəbi tənqidinin klassik mərhələsi ritorika və stilistika sahələri üzrə nəzəriyyəçi Abudulqahir əl-Curcaninin yaradıcılığı ilə başa çatmışdır.

## Dissertasiyanın mövzusuna dair dərc edilmiş elmi əsərlərin siyahısı


1. Əbdülqahir əl-Curcaninin tərcümeyi-halı orta əsr mənbələrində // “Azərbaycan Şərqşünaslıq Elminin İnkişaf Yolları” akad. Vasim Məmmədəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransın Materialları. − Bakı: − 2013. − s.377-378.
2. Исследование «Иджаз аль-Куран»а Джурджани //«Вестник» Московского государственного лингвистического Университета. − Москва:−2015. №11, − с.221-233.
3. Bədii ifadə və təsvir vasitələrinə dair Abdulqahir əl-Curcaninin görüşləri //AMEA Naxçıvan bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu, “Axtarışlar”. − Naxçıvan: −2017. №3, − s.54-59.
4. Metaphor in Arabic poetic science until Abd al-Qahir al-Jurjani //“European Journal of Literature and Linguistics, − Vienna: −2017. №2, − s.39-41.

5. Abd al-Qahir al-Jurjani's views on the figures of speech: tashbih (simile)// "Proceedings of the III International Scientific and Practical Conference "New opportunities in the World Scince". – Abu-Dhabi:–2017. vol.4, №9 (25), – s.29-31
6. Концепция порядка слов Абд аль-Кахира аль-Джурджани// Мультидисциплинарный научный журнал «Архивариус», XXI международная научно-практическая конференция «Наука в современном мире».–Киев: – 2017. 2 часть, – с.54-57
7. İslam və poeziya problemi Abdulqahir əl-Curcaninin təqdimində //AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, "Şərq filologiyası məsələləri". – Bakı: –2017.№10, – s.439-445
8. Ənənəvi ərəb dili qrammatikasının tədrisində Abdulqahir əl-Curcaninin "Avamil əl-Miə" əsəri mötəbər mənbə kimi (Qafqaz İslam təhsil müəssisələri nümunəsində) //"İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumun materialları (tezislər). – Bakı: – 2019. – s.445-449
9. Abdulqahir əl-Curcaniyəqədərki ərəb poetika elmində istiarə // AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, "Şərq filologiyası məsələləri". – Bakı: – 2019. №11,– s.82-87
10. Abdulqahir əl-Curcaninin ərəb poetika elminə gətirdiyi yenilik: təlil sənəti // "Müsəlman alimlərinin elm və texnologiyanın inkişafına töhfələri" mövzusunda konfrans materialları (çıxışlar və məqalələr). – Bakı: – 2020. – s. 189-201

11.نظرية النظم للجرجاني(الشواهد من شعر المتنبي)
كتاب ملخصات المؤتمر الدولي الحادي عشر للجمعية المصرية الدراسات السردية
تحت عنوان "بينات الادب العربي", مصر 2019, ص 32-33



Dissertasiyanın müdafiəsi "24" oktyabr 2024-cü il tarixində saat 12:00-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.18 − Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143, Bakı şəhəri, H.Cavid prospekti, 115, Akademiya şəhərciyi, Əsas bina, VII mərtəbə, akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun akt zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "20" sentyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 19.09.2024

Kağızın formatı: A5

Həcm: 45936

Tiraj:100